# Xankəndi sülh və əmin-amanlıq məkanına çevriləcək



"Qələbələr asan və rahat əldə olunmur. Bunun üçün ilk növbədə xalqını qələbəyə apara biləcək Lider olmalıdır. Məhz Liderin uzaqgörənliyi, xalqına və vətəninə sədaqəti ölkəni qalib edir və hər bir çətinliyi aşmağa yol açır".

Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Azər Badamov deyib. O, Azərbaycan dövlətinin ikinci dəfə müstəqillik qazanandan sonra ilk dövrdə qarşılaşdığı ağır vəziyyətlərdən söz açıb. Qeyd edib ki, ölkədə hansısa liderin olmaması torpaqlarımızın işğal altına düşməsinə və bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün  həyatı yaşamasına səbəb olub. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra isə xalqımızın xoşbəxtliyinin ilk mərhələsi başlanıb.

Deputat deyib ki, 2003-cü il oktyabrın 1-də Ümummilli Lider Heydər Əliyev xalqa çağırış edərək "Mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək" demişdi. Ulu Öndərin xalqa etdiyi bu tarixi çağırış real həyatda öz təsdiqini tapdı. Üç il əvvəl torpaqlarımız döyüş meydanında düşmən tapdağından azad olundu. Ulu Öndərin 100 illiyində üçrəngli dövlət bayrağımız Xocalıda, Xocavənddə və Xankəndidə dalğalandı.

Azər Badamov bildirib ki, 15 oktyabrda Azərbaycanın Dövlət Bayrağının Xankəndidə dalğalandırılması xalqımızın son 30 illik arzusunun reallaşmasıdır: "20 il əvvəl həmin tarixdə öz çiyninə məsuliyyətli və şərəfli bir vəzifəni götürən dövlətimizin  başçısı bu günün gələcəyini vəd etmişdi. 20 ildən sonra eyni gündə Prezidentimiz vədinə sadiq qalaraq bayrağımızı Xankəndidə ucaltdı. Bu hisslərin sözlə dolğun ifadə olunması asan deyil. Xankəndidə bayrağımızın ucaldılmasını seyr edən hər bir şəxs qürur və sevinc hissləri keçirir".

Deputatın sözlərinə görə, bayrağımızın Xankəndidə dalğalandırılmasının Ulu Öndər Heydər Əliyevin 100 illiyində baş verməsi xüsusilə qürurvericidir. Bu həm də Ümummilli Liderin ən böyük arzusunun reallaşması deməkdir. İndi Ulu Öndərin və torpaqlarımız uğrunda öz canından keçmiş şəhidlərimizin ruhları şaddır.

"Xüsusi qeyd etmək lazımdır ki, biz bayrağımızı Xankəndidə dalğalandırmaq üçün çətin, əzablı və şərəfli bir yol keçməli olduq. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın iqtisadi və siyasi müstəqilliyə nail olması bugünkü qələbəni yaşamağımıza yol açdı. Azərbaycan inkişaf etdi, gücləndi, mövqelərini möhkəmlətdi, haqq sözünü dünyaya qəbul etdirdi və döyüş meydanında torpaqlarını erməni işğalından azad etdi", - deyə deputat bildirib.

Azərbaycanın bütün ərazilərində suverenliyini təmin etdiyini xatırladan Azər Badamov deyib: "Hər yerdə bayrağımız dalğalanır ki, bu da bizə sülh, inkişaf və intibah gətirir. Üç ildir ki, bayrağımız işğaldan azad olunmuş ərazilərdə dalğalandıqca bu torpaqlara yeni nəfəs qayıdır. Artıq ərazilərimizdə "boz zona"lar yoxdur".

Deputat onu da söyləyib ki, Xankəndi səmasında üçrəngli bayrağımızın dalğalanması xalqımıza böyük qürur yaşatdı. İndi bu ərazilər sülh və sabitlik məkanına çevriləcək. İşğaldan azad edilmiş bütün şəhər və kəndlərimiz kimi, Xankəndi də inkişafa qovuşacaq və soydaşlarımız doğma yurdlarına qayıdaraq rahat və təhlükəsiz həyatlarına davam edəcəklər. Bütün bu uğurlara nəyi necə və nə zaman etməyi hamıdan yaxşı bilən Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin sayəsində nail olmuşuq.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 17 oktyabr.- S. 13.